**AZƏRBAYCAN RESPUBLİKASININ**
**ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ ÜZRƏ**
**DÖVLƏT AGENTLİYİ**

# ƏMR

№ 17

Bakı şəhəri "22" 10 2018-ci il

**İşçi qrupunun yaradılması barədə**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının 7.2.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 fevral tarixli 810 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi haqqında Əsasnamə"nin 5.5.7-ci yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının 7.2.6-cı yarımbəndə nəzərdə tutulmuş aqrar sahədə "yaşıl iqtisadiyyat"a keçid potensialının qiymətləndirilməsi və istixanaların istilik təchizatında alternativ enerji mənbələrindən istifadə edilməsinin icrasını təmin etmək məqsədilə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələrindən ibarət aşağıdakı tərkibdə işçi qrupu yaradılsın.

**İşçi qrupun rəhbəri**

Cəmil Məlikov - Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədrinin müavini

**İşçi qrupun üzvləri**

Sahib Xəlilov - Dövlət Agentliyinin Alternativ və bərpa olunan enerji mənbələri və ətraf mühitin qiymətləndirilməsi şöbəsinin müdiri

Cabir Yusifov - Dövlət Agentliyinin İnvestisiyalar və layihələrin idarə olunması şöbəsinin müdiri

İsa Əliyev - Dövlət Agentliyinin Monitorinq və nəzarət şöbəsinin müdir müavini

Əsli ilə düzdür

| | | |
|---|---|---|
| Pərviz Qəribzadə | - | Dövlət Agentliyinin İnvestisiyalar və layihələrin idarə olunması şöbəsinin müdir müavini |
| Aqşin Əhmədli | - | Dövlət Agentliyinin Iqtisadiyyat və dövlət proqramları şöbəsinin müdir müavini |
| İmran Əbdülov | - | Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin direktor müavini |
| Oqtay Hüseynov | - | Kənd Təsərrüfatı Nazirliyi Aparatının Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin sektor müdiri |
| Gündüz Məmmədov | - | "Azalternativenerji" MMC-nin İnnovasiyalar və informasiya Texnologiyaları şöbəsinin müdiri |

2. İşçi qrupuna tapşırılsın ki, nəzərdə tutulmuş aqrar sahədə "yaşıl iqtisadiyyat"a keçid potensialının qiymətləndirilməsi üzrə aşağıdakı tədbirləri həyata keçirsin:
   2.1. "yaşıl iqtisadiyyat"a keçid potensialının qiymətləndirilməsi ilə bağlı tədbirlər planı hazırlasın və icrasını təmin etsin.
   2.2. tədbirlər planının icrası ilə bağlı görülmüş işlər barəsində məlumatların mütəmadi olaraq Dövlət Agentliyinin sədrinə təqdim olunması təmin edilsin.
3. Agentliyin İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi bu əmrin surətinin Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
4. Agentliyin Ümumi işlər üzrə sektoru bu əmrin surətinin işçi qrupun üzvlərinə çatdırılmasını təmin etsin.
5. Əmrin icrasına nəzarət Dövlət Agentliyin sədrinin müavini C.Məlikova həvalə edilsin.

Sədr      Akim Bədəlov

Əsli ilə düzdür

**Əmri hazırladı:**
Hüquq və beynəlxalq əlaqələr
şöbəsinin müdiri A.Süleymanov

**İmzalar:**

Sədr müavini C.Məlikov

Sədr müavini N.Yusifbəyli

Aparat rəhbəri İ.Əhmədov